# Sənət dünyasına gedən yol

**İstedad insanın özü ilə birgə doğulur, lakin məqamı çatınca üzə çıxır. Bəzən hər hansı bir sahədə təhsil alıb, peşə seçib çalışsan da illər sonra başqa bir sahədə işləmək, özünü orda axtarmaq istəyirsən. Öz yolunu tapmaq, onu dəyərləndirmək zaman alsa da səni uşaqlıqdan, yeniyetməlikdən addım-addım izləyən arzuna, istəyinə doğru can atır, daxilindən səni rahat buraxmayan qabiliyyətini, istedadını sevdiyin işə tətbiq etməyə, nəyə qadir olduğunu sübut etməyə çalışırsan...**

Gülşən Qasımzadə də vaxtilə seçdiyi sənətində özünü tapa bilmədi. O, anası Sona xanımın tövsiyəsi, məsləhəti ilə həkim olmağa qərar vermişdi. Hətta Sona xanım cərrahi əməliyyatlara girərkən Gülşəni də özü ilə götürür, qızını həkim olmağa, özü də ürəkli bir cərrah olmağa hazırlayırdı.

Gülşən 1984-cü ildə Bərdə rayonunda anadan olub. 1991-ci ildə burada 1 saylı orta məktəbin birinci sinfinə gedib. 2000-ci ildə isə həmin məktəbi fərqlənmə attestatı ilə bitirib. Orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Tibb Universitetinə verir. Lakin az bir fərqlə qəbul oluna bilməyərək BDU-nun biologiya fakültəsində təhsil almağa başlayır. Nə şəhər mühiti, nə də qayğısız tələbəlik illəri Gülşənin ürəyini aça bilmir. Düzgün olmayan seçimi onu rahat buraxmır.

Atası Memarlıq və İnşaat Mühəndisləri Universitetinin prorektoru Tofiq Qasımov günlərin birində qızları İlahə və Gülşəni universitetdə keçiriləcək Fidan və Xuraman Qasımovaların konsertinə dəvət edir. O gün Gülşənə həyatda öz yolunu, öz peşəsini seçməyə vasilə olur. Konsertdən əvvəl atasının işlədiyi universitetlə, buradakı tələbələrin əl işləri, sərgiləri ilə tanış olduqca özünü başqa bir aləmdə hiss edir, sanki axtardığını tapmış kimi qəribə bir rahatlıq duyurdu. Elə oradaca atasından bu universitetdə oxuması üçün razılıq alır. Bir ildən sonra isə fərq imtahanlarını uğurla verərək Azərbaycan Memarlıq və İnşaat Mühəndisləri Universitetinin Memarlıq fakültəsinin tələbəsi adını qazanır. O gündən sənət yolunu tapan Gülşən böyük həvəslə yaradıcılıqla məşğul olmağa başlayır. Şirin, qayğısız tələbəlik illəri, bir də sevib-seçdiyi sənətindən məmnunluğu Gülşəni daha həvəslə, əzmlə çalışmağa sövq edirdi.

Artıq təhsilinin son illərində o "Genesis" reklam şirkətində dizayner kimi ilk iş fəaliyyətinə başlayır. Bu, Gülşənin əlçatmaz arzusunun çin olması demək idi. 2005-ci ildə təhsilinin bakalavr pilləsini müvəffəqiyyətlə başa vuraraq oxuduğu universitetin magistr pilləsində təhsilini davam etdirən Gülşən, eyni zamanda əmək fəaliyyətini də yarımçıq qoymur. O, "Akkord Şirkətlər Qrupu"nda, "Arxi-kod" memarlıq-dizayn studiyasında, "Casa Mia" və "Artplus" memarlıq şirkətlərində memar-dizayner kimi çalışır.

Memar-dizayner kimi öz işinin öhdəsindən bacarıqla gələn Gülşən Qasımzadə həm də foto rəssamlığı ilə də məşğul olur. Bu istək, bu arzu hələ kiçik yaşlarından baş qaldırmışdı Gülişəndə.

Fotoya olan maraq, həvəs bu gün də Gülşənin yaradıcılığında ayrıca yer tutur. Belə ki, 28 may 2012-ci ildə Respublika Günü ilə əlaqədar vətənimizin qeyri-adi gözəlliklərini əks etdirən təbiət mənzərələri, "Əshabi-Kəhf" ziyarətgahı, "Qız Qalası", "Kiş" kəndindəki qədim tarixi alban abidələrimizin fotoları, Slovakiyanın paytaxtı Bratislava şəhərində "Reduta" Dövlət Filarmoniyasında təşkil olunan gənc və istedadlı fotoqraf Gülşən Qasımzadənin "Etno" adlı fotosərgisində sərgilənərək sanki vətənimizin seyrinə çağırırdı elləri.

Gülşən 2015-ci ilə Bakı Metropoliteninin təşkil etdiyi "Metro Gallery" ümumi fotosərgi layihəsində də uğurla iştirak etmişdir.

İşıq-kölgəni, bədii foto sənətini, onun sirlərini dərindən öyrənən və çəkdiyi hər bir fotoda bunu tətbiq etməyə çalışan Gülşən Qasımzadə 5 noyabr 2017-ci ildə Milli İncəsənət Muzeyində növbəti fərdi sərgisini təşkil edir. Onun "Yaddaş", "Mərhəmət", "Ümid", "Uçmuş yuva", "Əzablı yollar", "İtirilmiş zaman ", "İşığa doğru", "Babadağ", "İlk addımlar", "Məhəbbət" və s. 70-ə yaxın foto əsəri sərgilənərək böyük tamaşaçı rəğbəti qazanmışdı.

Foto sənətinin bəzən çoxlarının düşündüyü kimi asan, yaxud da bir hobbi olmadığını, bu sənətin sözün əsl mənasında yaradıcılıq, istedad tələb etdiyini söyləyən Gülşən Qasımzadə deyir: "Hamının görmədiyi, hiss etmədiyi elə məqamlar var ki, onlar məharətli fotoqrafın obyektivində çox qeyri-adi təsir bağışlayır. Heç kəsin əhəmiyyət vermədiyi incə detallar fotoobyektin gözü ilə çox dərin mətləblərdən xəbər verir. İnsanların üzlərinin ifadəsi, gözlərinin, baxışlarının mənası, emosiyalar fotoda açıq-aydın görünür. Çəkdiyim fotolarda insanın gözünə baxıb onun nə hiss etdiyini duya bilirəm. Bax, bu hissi fotoya köçürmək, o anı tutmaq mənim üçün çox qiymətlidir".

Gülşən Qasımzadə fırçasında Təbriz miniatürləri, tarixin Səfəvilər, Şah İsmayıl Xətai dövrü özünəməxsusluğu ilə seçilir. Onun "Türkiyə-Azərbaycan orta əsr saray xalçaları" doktorluq mövzusu da məhz miniatür



sənətinə olan marağın ifadəsidir.

İnsanın qabiliyyətinin, istedadının aşkar edilməsində, üzə çıxarılıb inkişaf etdirilməsində ilk növbədə valideynlər və müəllimləri böyük rol oynayır. Sona xanım da övladlarının seçdikləri sənətində irəliləmələri, dərinliklərinə qədər varmaları üçün fədakarlıq göstərib hər zaman. Gülşənin istər memar-dizayner, istərsə də fotorəssam kimi sənət dünyasına atdığı hər bir addımda anası Sona xanımın, atası Tofiq müəllimin böyük əməyi, dəstəyi olub.

Gülşən Qasımzadə hazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Dekorativ tətbiqi incəsənət kafedrasının doktorantura pilləsində təhsilini davam etdirir. O, eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyir. Vaxtilə müəllimləri Vüqar Əhədov, Yeganə Hacıyeva, Yaşar Dəmirdən sənət dərsi alan Gülşən bu gün öyrəndiklərini böyük məsuliyyət və həvəslə tələbələrinə öyrədir. Axı, öyrətmək özü də məharət tələb edir insandan...

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**